


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 149 (21.050)

*8 avqust 2014-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Latviya Respublikasının müdafiə naziri Raymonds Veyonisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan ilə Latviya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini diqqətə çatdırdı. Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə, Azərbaycan-NATO əməkdaşlığı çərçivəsində əlaqələrin müzakirəsi üçün səfərin yaxşı fürsət yaratdığını dedi.

Latviyanın müdafiə naziri Raymonds Veyonis ölkələrimiz arasında ikitərəfli münasibətlərin davamlı inkişafının əhəmiyyətini vurğuladı. Nazir Azərbaycanın ölkəsi üçün müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə mühüm tərəfdaş olduğunu bildirdi. O, Latviyanın Azərbaycan ilə əməkdaşlığın daha da genişləndirilməsinə maraq göstərdiyini qeyd etdi.



## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər müzakirə edilib



***Avqustun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə qarşıya qoyulmuş tapşırıqların icrası ilə əlaqədar dünən Naxçıvan Şəhər İcra Hakimiyyətində yığıncaq keçirilib. Tədbiri Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açıb.***

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Səyahət İmanov məruzə ilə çıxış edib. Bildirilib ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar Naxçıvan şəhərində əhalinin etibarlı elektrik enerjisi ilə təmin olunması üçün bir sıra kompleks tədbirlər həyata keçirilib. 2013-2014-cü ilin qış mövsümü başa çatdıqdan sonra transformator yarımstansiyalarında əsaslı və cari təmir işləri aparılıb, istismar müddəti başa çatmış elektrik dirəkləri yenisi ilə əvəz olunub. Cari ilin qış mövsümünə hazırlıqla əlaqədar, ümumilikdə, 94 ədəd istismar müddəti başa çatmış elektrik dirəkləri yığışdırılıb, 14 min 334 metr uzunluğunda elektrik verilişi hava xətləri yeraltı kabellə əvəz olunub. Bundan əlavə, 0,4 kilovoltluq elektrik verilişi hava xətlərində qəza hallarının aradan qaldırılması üçün mühafizə zonası altında yerləşən ağaclarda budama işləri aparılıb, yararsız vəziyyətdə olan 7 min 600 metr uzunluğunda elektrik naqilləri yenilənib, 2014-cü ilin qış mövsümünə hazırlıqla bağlı 2 ədəd yeni transformator yarımstansiyası quraşdırılıb, 274 ədəd sıradan çıxmış elektrik hesablama sayğacları yeniləri ilə əvəzlənib.

Qeyd olunub ki, 2014-2015-ci ilin payız-qış mövsümünü Naxçıvan şəhərində mütəşəkkil keçirmək üçün Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsində daxili avtomobil və piyada yollarını qardan təmizləmək məqsədilə qumsəpən və qartəmizləyən maşınlar saz vəziyyətə salınıb, qum gətirilərək tədarük edilib, fəhlələr üçün xüsusi isti geyim formaları sifariş verilib. Bəhs olunan mövsümi dövr üçün Naxçıvan şəhərində 8 marşrut üzrə əhaliyə xidmət göstərəcək 56 avtobus tam saz vəziyyətə salınıb, qış mövsümü üçün avtobusların hərəkət qrafiki tərtib olunub.

Əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi və kanalizasiya sisteminin yenidən qurulması ilə bağlı görülmüş işlərdən bəhs edən məruzəçi bildirib ki, 1 avqust 2014-cü il tarixə olan məlumata görə, Naxçıvan şəhərində 212,2 kilometr uzunluğunda kanalizasiya, 222,5 kilometr uzunluğunda isə içməli su xətti çəkilib.

Bildirilib ki, bu mövsümdə Naxçıvan şəhərində 15 məktəb, 9 uşaq bağçası fərdi, 1 uşaq bağçası mərkəzləşdirilmiş qazanxana, 1 məktəb isə neft sobası ilə qızdırılacaqdır.

Tədbirdə Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsinin müdiri Vəli Həsənovun və Qaz İstismarı İdarəsinin müdiri Rasim Seyidovun çıxışları olub.

Sonra qarşıya qoyulmuş tapşırıqların vaxtında yerinə yetirilməsi üçün müzakirələr aparılıb.

Tədbirə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov yekun vurub.

## Ali məktəblərə builki qəbul imtahanlarında yüksək bal toplayan abituriyentlərin sayı bir qədər də artıb

Muxtar respublikamızda ən üstün istiqamət verilən sahələrdən biri təhsildir. Bu sahənin inkişaf etdirilməsi üçün məqsədyönlü tədbirlər diqqət mərkəzində saxlanılır, hər il yeni məktəb binaları inşa olunur, təhsil ocaqlarının maddi-texniki bazaları gücləndirilir. Bütün bunlar öz bəhrələrini verir. Ali məktəblərə builki qəbul imtahanlarında 500-700 intervalında bal toplayan naxçıvanlı abituriyentlərin sayı bir qədər də artaraq 347 nəfərə çatıb. Müqayisə üçün bildirək ki, bu rəqəm 2012-ci ildə 267, ötən il isə 312 nəfər olmuşdu. Builki qəbulun nəticələrinə görə, 231 nəfər 500-600, 88 nəfər 600-650, 28 nəfər 650-700 intervalında bal toplayıb.

Yüksək bal toplayan abituriyentlər sırasında 33 ucqar dağ kənd məktəbinin məzunları var. Bu da onunla bağlıdır ki, son illər muxtar respublikamızda geniş vüsət almış tikinti-quruculuq işlərinin tərkib hissəsi olan yeni məktəb binalarının tikintisi belə ünvanlarda daha çox aparılır.

***Muxtar respublikamızda sosial-iqtisadi inkişafın bəhrələri olan yeni quruculuq ünvanlarının sayı getdikcə artır. Bu, region sakinlərinə göstərilən qayğının ifadəsi kimi diqqəti çəkir. Qədim diyarımızın ən böyük bölgələrindən biri olan Babək rayonunun quruculuq xəritəsi də hərtərəfli dövlət qayğısı hesabına ildən-ilə genişlənir. "Muxtariyyət ili"ndə quruculuq tədbirləri həm rayon mərkəzində, həm də bölgənin bir neçə kənd yaşayış məntəqəsində davam etdirilir.***

## Babək rayonunda yeni quruculuq ünvanları


*Güznüt kəndində tikilən binalar*


*Rabitə İdarəsi üçün inşa edilən inzibati bina*

Cari ilin birinci yarısında 13 yaşayış məntəqəsini əhatə edən Hacıvar-Vayxır-Sirab avtomobil yolu yüksək keyfiyyətlə yenidən qurularaq istifadəyə verilib. Babək qəsəbəsində rayon Mərkəzi Xəstəxanası və uşaq bağçası üçün yeni binalar tikilib. Həmin obyektlər müasir avadanlıqlarla təmin olunub, onların yerləşdikləri ərazilər abadlaşdırılıb. Rayon Tarix-Diyarşünaslıq Muzeyinin binası yenidən qurularaq müasir görkəmə gətirilib.

Cəhri kəndində sahə xəstəxanasının, 1 nömrəli tam orta məktəbin binaları yenidən qurularaq, xidmət mərkəzi üçün yeni bina tikilərək istifadəyə verilib. Həmin yaşayış məntəqəsində 2,8 kilometr uzunluğunda kənddaxili yola asfalt örtük salınıb. 1200 metr uzunluğunda qapalı drenaj xətti çəkilib, 2020 metr uzunluğunda içməli su xəttində təmir-bərpa işləri aparılıb. Əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə mövcud avtomat telefon stansiyası 1024 yerlik yeni nəsil avtomat telefon stansiyası ilə əvəz edilib, Cəhri və Gülşənabad kəndlərini əhatə edən 256 nömrəlik yeni nəsil avtomat telefon stansiyası quraşdırılıb.

Hazırda Babək qəsəbəsində rayon Rabitə İdarəsi üçün yeni bina tikilir. Bu quruculuq tədbiri "Dizayn İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən həyata keçirilir. Obyektdə yaradılan şərait hesabına ötən müddət ərzində xeyli inşaat işi görülüb. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada dəmir-qəlib, zirzəmidə hörgü, suvaq və alçı işləri başa çatdırılıb. Həmin işlər hazırda birinci mərtəbədə davam etdirilir. İkinci və üçüncü mərtəbələrdə hörgü işləri aparılır.

Adıçəkilən tikinti təşkilatının bir qrup inşaatçısı Nehrəm kənd 2 nömrəli tam orta məktəb binasının yenidən qurulması ilə məşğuldur. Yeni layihəyə əsasən, zirzəmi ilə birlikdə 3 mərtəbə nəzərdə tutulmuş binaya 2 korpus əlavə edilir. Zirzəmidə bir neçə gündür suvaq işlərinə başlanılıb. Birinci korpusda panellərarası qəlib, digər korpusun zirzəmi və birinci mərtəbəsində suvaq işləri görülür, ikinci mərtəbədə dəmir-qəlib işləri aparılır.

Güznüt kəndində də həyata keçirilən kompleks quruculuq tədbirləri sürətlə davam etdirilir. Həmin tədbirlər "Naxçıvan Əcəmi Tikinti-Quraşdırma" Açıq Səhmdar Cəmiyyətinin inşaatçılarına həvalə edilib. İş icraçısı Adil Baxşəliyevdən aldığımız məlumata görə, bu yaşayış məntəqəsində kənd mərkəzi, həkim ambulatoriyası və xidmət mərkəzi üçün binalar inşa edilir. İki mərtəbədən ibarət olacaq kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana və mədəniyyət evi fəaliyyət göstərəcək. Obyektdə tikinti işləri əsasən başa çatdırılıb.

Həkim ambulatoriyası üçün inşa edilən bina da 2 mərtəbədən ibarətdir. Kənd adamlarına böyük dövlət qayğısının daha bir ifadəsi olan bu obyektin inşasında da keyfiyyət amilinə ciddi diqqət yetirilir.

Yeni obyektlər sırasında 1 mərtəbədən ibarət xidmət mərkəzi də var. Hər 3 obyektin inşası başa çatdırıldıqdan sonra ərazi abadlaşdırılacaq, yaşıllıq zolaqları, gülkarlıqlar salınacaq.

Kənd tam orta məktəbinin binası da yenidən qurulur. Qısa müddət ərzində burada qapılar və istilik sistemi dəyişdirilib, döşəmə-tavan yenidən vurulub. Hazırda su xətti yenilənir, həyətyanı sahə genişləndirilir.

Quruculuq tədbirlərindən Qoşadizə kəndinə də pay düşüb. Adıçəkilən tikinti təşkilatının inşaatçıları tərəfindən bu yaşayış məntəqəsində 2 mərtəbədən ibarət kənd mərkəzi, 1 mərtəbədən ibarət xidmət mərkəzi inşa olunur. Kənd tam orta məktəbinin binası yenidən qurulur. İndiyədək ikimərtəbəli olan məktəb binasına 1 mərtəbə də əlavə edilib. Həmçinin mövcud korpuslardan biri sökülərək yenidən tikilir. Həmin korpus zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq.

Rayonun Qahab kəndində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası üçün yeni binalar tikilir, kənd tam orta məktəbin binası isə yenidən qurulur. Naxışnərgizdə isə kənd mərkəzi və məktəb üçün yeni binalar inşa edilir.

Rayonun yol təsərrüfatında da quruculuq işləri sürətlə davam etdirilir. Babək qəsəbə-Qoşadizə-Naxçıvan Beynəlxalq Hava Limanını birləşdirən yol genişləndirilir, Yarımca-Qahab-Naxışnərgiz avtomobil yolunun tikintisi aparılır.

Göründüyü kimi, "Muxtariyyət ili"ndə muxtar respublikamızın digər bölgələri kimi, Babək rayonunda da xeyli quruculuq tədbirləri həyata keçirilib və həyata keçirilməkdədir. Bütün bunları babəklilər regionumuzda davamlı xarakter almış sosial-iqtisadi inkişafın yeni bəhrələri kimi dəyərləndirirlər.

**Xəbərlər şöbəsi**




***“Bura Azərbaycan torpağıdır. Buradan bir neçə kilometr məsafədə yerləşən Ağdam şəhəri də Azərbaycan torpağıdır, Xankəndi də, Şuşa da, bütün digər işğal edilmiş torpaqlar da... Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq...”***

# Əlahiddə Ümumqoşun Ordusu istənilən hərbi vəzifəni icra etmək qüdrətindədir



Bu fikirlər Cənubi Qafqazın ən inkişaf etmiş və ən güclü orduya malik ölkəsinin Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən avqustun 6-da düşmənlə təmas xəttində bir daha səsləndirildi. Həm də ordumuzun düşmənə tam olmasa da, kiçik bir gücünü hiss etdirəndən sonra... Bəs, əslində, cəbhədə nə baş verir? Praktik olaraq müstəqilliyini itirmiş forpost bir ölkənin ianələr hesabına formalaşan hərbi qüvvələri olmaya Azərbaycan Ordusunun gücünü “yoxlamaq” sevdasına düşüb? Bəlkə gələcəyi ilə bağlı müstəqil qərar vermək səlahiyyətində olmayan düşmən işğal etdiyi ərazilərin miqyasını böyütmək istəyir? Münaqişənin təfərrüatları, 20 ildən artıq bir dövrdə atəşkəs rejiminin davam etməsinə baxmayaraq, sabitliyin mütəmadi olaraq pozulması heç kimə sirr deyil. Təbii ki, münaqişənin hərbi kontekstdənkənar mühüm siyasi tərəfləri də var, lakin bu tərəflərə toxunmadan ümumi ab-havanı oxucularımızla bölüşmək istərdik.

Əvvəlcə onu qeyd edək ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə hesab olunsa da, 1994-cü ildən bu tərəfə düşmən ölkə hər zaman bu donun buzunu sındırmağa çalışıb. Yəni ötən 20 il ərzində atəşkəs vəziyyəti düşmən tərəfdən pozulub. Ötən əsrin sonlarında Azərbaycanın düçar olduğu ağır siyasi vəziyyət və ölkəyə rəhbərlik edən bacarıqsız rəhbərlərin “fəaliyyəti” nəticəsində torpaqlarımız işğal olunsa da, bu işğal yalnız Dağlıq Qarabağa olan ərazi iddiaları ilə məhdudlaşmayıb – ətrafdakı 7 rayon da işğal edilib. Bu faktın özü onu göstərir ki, əsassız erməni iddiaları bütün torpaqlarımıza qarşı yönəlib. Bu illər ərzində işğal edilmiş torpaqların azad olunması ilə bağlı Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi qətnamələrin heç biri öz həllini tapmayıb. Dünya birliyinin məsələyə ikili standartlar səviyyəsində yanaşması, bu qətnamələrin yerinə yetirilməməsi ilə yanaşı, düşmənləri daha da həvəsləndirib. Yəni sabitliyin pozulması təkcə gərginlik yaratmaq məqsədi daşımayıb, eyni zamanda yeni ərazilərin də işğalını nəzərdə tutub. Və ən əsası münaqişə yalnız Azərbaycan ərazilərində davam edib və etməkdədir.

Təbii ki, ötən müddət ərzində ölkəmiz uğurla inkişaf edərək öz iqtisadi gücünü və hərbi qüdrətini artıraraq mükəmməl gücə sahib olub. Bu güc ona dünya dövlətləri sırasında böyük nüfuz da qazandırıb. Məhz bunun nəticəsidir ki, dünyanın əksər dövlətləri Azərbaycanın ərazi bütövlüyünün pozulmasını qəbul edir və problemin həlli yolunda ölkəmizin haqlı mövqeyini müdafiə edirlər. Ancaq burada əsas üstünlük məsələnin sülh yolu ilə həll olunmasına verilir. Əslində, Azərbaycanın da bu yolla məqsədinə çatmaq istəyi heç kimə sirr deyil. İndi ölkəmiz ötən əsrin sonlarında olduğu kimi, iqtisadiyyatı zəif, beynəlxalq aləmdə heç bir dayağı olmayan ölkə deyil. Azərbaycan problemin ya sülh, ya müharibə variantının hər birinə hazırdır. Lakin məsələnin görünən tərəfi odur ki, düşmən ölkə sülhə hələlik hazır deyil. Bunu son günlərin hadisələri də təsdiq edir.

Bir neçə gün bundan əvvəl ölkə başçısının da dediyi kimi, düşmən qorxaqcasına və namərdcəsinə bölgələrimizə hücum etdi. Bu hücumda ordumuz şəhid versə də, düşmən də layiqli cavabını aldı, xeyli hərbçisini



və texnikasını itirdi. Düşmən ölkə hər vəchlə itkilərin sayını xeyli azaltsa da, ordumuzun cavab həmləsindən sonra böyük qorxu və həyəcanla atəşkəsin əldə olunmasına edilən çağırışlar itkilərin kifayət qədər böyük olduğundan xəbər verir. Şəhidlərimizin qanını yerdə qoymayan ordumuzun birlikləri gücünün çox kiçik bir hissəsini göstərməklə düşmənə layiqli cavab verdi. Silahlı Qüvvələrimiz bu cavabı düşmənə hücum edərək deyil, təmas xəttində göstərdi. Döyüşdə fərqlənən hərbçiləri isə Ali Baş Komandan elə səngərdə təbrik etdi. Avqustun 6-da cənab İlham Əliyev Ağdamda yerləşən “N” hərbi hissədə döyüş xidməti aparan əsgər və zabitlərlə görüşdü, buradakı komanda müşahidə məntəqəsindən düşmənin mövqelərini izlədi. Hərbi qulluqçularla görüşdə Ali Baş Komandan ordunun potensialını belə qiymətləndirdi: ***“...Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik. Son vaxtlar həm Azərbaycanda müasir silah və texnika istehsal olunur, eyni zamanda xarici mənbələrdən aldığımız avadanlıq, texnika, silah-sursat ən müasir standartlara cavab verir. Hava hücumuna qarşı ən müasir qurğular əldə edilibdir. Ordumuzda ən güclü artilleriya qurğuları vardır. Böyük dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş və nəqliyyat helikopterləri, döyüş təyyarələri, zirehli texnika, tanklar – bütün bunlar bu gün Azərbaycan Ordusunun potensialını təşkil edən amillərdir. Bu gün Azərbaycan Ordusu Dağlıq Qarabağdakı istənilən obyekti məhv edə bilər. Bunu biz də bilirik, Azərbaycan xalqı da, düşmən də bilməlidir. Bu gün ancaq Azərbaycan dövlətinin siyasəti sayəsində bölgədə sabitlik hələ ki, təmin edilibdir. Azərbaycan sabitləşdirici ölkədir. Biz bu gün öz imkanlarımızı artıraraq daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda, istənilən vəzifəni icra edə bilər”.***

Ali Baş Komandanın təmas xəttində söylədiyi bu fikirlər, düşünürük ki, ordumuzun hazırlıq səviyyəsini göstərməklə bərabər, həm də düşmənə əsl xəbərdarlıqdır. Düşmənə digər xəbərdarlığımız isə bu Silahlı Qüvvələrimizin ən böyük hərbi kontingentinin – Əlahiddə Ümumqoşun Ordusunun Naxçıvanda yerləşməsidir. Muxtar respublikaya ehtimal olunacaq istənilən hücumu ən müasir döyüş silahları ilə dəf etmək gücünə malik Əlahiddə Ümumqoşun Ordusu çoxminlik şəxsi heyəti ilə düşməni yerindəcə məhv etmək qabiliyyətinə malikdir. Bunun bir neçə gün bundan əvvəl bu qoşun növünün regionun ən strateji nöqtələrindən biri olan Sədərək rayonu ərazisindəki döyüş postlarında müşahidə apardığımız zaman bir daha şahidi olduq. Ötən əsrin sonlarında Naxçıvanın müdafiəsində öz sözünü demiş bu strateji məntəqə indi igid əsgərlərimiz tərəfindən göz bəbəyi kimi qorunur. Burada olarkən səngərdə görüşüb söhbət etdiyimiz əsgərlərdən Qabil Mehdiyev, Fəqan Qiyasoğlu, İbrahim Hacıyev, gizir Vüqar Əliyev Ali Baş Komandanın hücum əmrinə hər an hazır olduqlarını qeyd etdilər. Bu qəhrəman vətən oğulları onu da vurğuladılar ki, Ali Baş Komandanı cənab İlham Əliyev olan ordumuz hər zaman yenilməzdir. Onu da öyrəndik ki, sərhəd boyu sakitlikdir. Ölkənin digər təmas xətlərindən fərqli olaraq, bu mövqelərimizdə atəşkəsin pozulması hallarına rast gəlinməyib. Müşahidə postlarının birində rastlaşdığımız mənzərə isə hər birimizin qəlbini dağa döndərdi: Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şərəfinə yaradılmış guşədə **“Hər birimiz MÜBARİZİK”** sözləri yazılmışdı. Mübarizliyin əsl simvolunu qəlblərində yaşadan bu qəhrəman əsgərlərin Vətən, torpaq sevgisi gözlərindən oxunurdu.

Bəli, bu əsgərlər öz Vətənlərində – Azərbaycan torpağında xidmət edirlər. Bizim heç bir ölkənin torpağında gözümüz yoxdur. Ancaq bizim torpaqlarda gözü olanların layiqli cavab alacaqları gün də uzaqda deyil. Ali Baş Komandanın dediyi kimi: ***“Bura Azərbaycan torpağıdır... Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır... Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq...”***

**Səbuhi HƏSƏNOV**

*Naxçıvanın Azərbaycana bəxş etdiyi ilklər*

# Hərbi sahədə bu torpaqda atılan ilk addımlar hərb tarixinə qızıl hərflərlə yazılmışdır

***Naxçıvan elmi-ədəbi, ictimai-siyasi, mədəni mühitinin Azərbaycan tarixinə, ədəbiyyatına, elminə, mədəniyyətinə, siyasət və hərb tarixinə bəxş etdiyi ilklərdən bəhs edən rubrikamızın budəfəki yazısında müasir dövrdə Naxçıvan Muxtar Respublikasında hərb sahəsində atılan ilk addımlardan bəhs olunacaq.***

Naxçıvan Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında mühüm rol oynamış qədim diyardır. Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz bir hissəsi kimi milli azadlıq uğrunda, dövlət müstəqilliyimiz uğrunda gedən mübarizədə həmişə ön sırada yer almışdır.

Ümummilli liderimiz Heydər Əliyevin xalqımız qarşısında çoxsaylı xidmətləri sırasında müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin yaradılması, möhkəmləndirilməsi, döyüş hazırlığının yüksəldilməsi mühüm əhəmiyyət daşıyır. Milli Ordumuzun yaradılmasına ötən əsrin 90-cı illərində ulu öndərimizin rəhbərliyi ilə Naxçıvanda başlanmışdır. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi dörd gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsi yaradılmışdır. Bu dövrdə Naxçıvan Muxtar Respublikasında milli ordu quruculuğunu şərtləndirən mühüm amillərdən biri də keçmiş Sovetlər Birliyinə məxsus hərbi hissələrin öz sərəncamlarında olan silah-sursatı, döyüş texnikasını və digər hərbi əmlakı yüz faiz burada saxlamaqla muxtar respublika ərazisini tərk etmələri oldu. 1992-ci il avqustun 18-də 75-ci diviziyanın əmlakının, silahlarının, hərbi texnikasının Azərbaycan Milli Ordusuna verilməsi haqqında sənədlərin imzalanması ilə Rusiya ordusunun hərbi hissələri Naxçıvan Muxtar Respublikasını tərk etmişdir. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil olunmuşdur.

İlk milli sərhəd qoşunlarının yaradılması da Naxçıvandan başlanmışdır. Sərhəd qoşunları dəstəsində Azərbaycanın milli bayrağı ilk dəfə Naxçıvanda qaldırılmışdır. Oktyabr ayının 9-da Naxçıvanda ilk hərbi parad keçirilmişdir.



Ümummilli lider Heydər Əliyev Naxçıvan Qarnizonunun əsgər və zabitləri ilə görüşdəki nitqində deyirdi: ***“1990-1991-ci illərdə burada çox gərgin vəziyyət vardı. Bir tərəfdən Ermənistan ərazisindən Naxçıvana, Azərbaycana vaxtaşırı hücumlar baş verir, ikinci tərəfdən də Naxçıvanda daxili ictimai-siyasi vəziyyət həddən artıq gərgin idi. O illərdə naxçıvanlılar çox gərgin bir dövr yaşadılar. O zaman Naxçıvanın torpaqlarını qorumaq, Ermənistanın hərbi təcavüzünə cavab vermək üçün bizim ilk addımlarımızdan biri Naxçıvanda Müdafiə Komitəsi yaratmaq oldu. Bununla da, biz Naxçıvanda mütəşəkkil silahlı qüvvələr yaratmaq prosesinə başladıq. O vaxt Azərbaycan Silahlı Qüvvələrinin bir hissəsi olan Naxçıvan silahlı qüvvələri yaranmağa başladı”.***

Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu quru qoşunlarından, hərbi hava qüvvələrindən və hava hücumundan müdafiə qoşunlarından, hərbi dəniz qüvvələrindən ibarətdir. Hər qayası, hər daşı Azərbaycan tarixinin müəyyən bir mərhələsindən xəbər verən Naxçıvan diyarı Azərbaycanın ayrılmaz parçasıdır. Naxçıvan əsrlər boyu bir çox əhəmiyyətli hadisənin şahidi olmuş, hərbi sahədə bu torpaqda atılan təməllər müasir hərb tarixinə qızıl hərflərlə yazılmışdır. Azərbaycan hərb tarixində ən çox general yetişdirən nəslin məskəni olan bu torpaq əyilməz, yenilməz bir qala kimi tarixin sınaqlarından uğurla çıxmışdır. Son vaxtlar Naxçıvanda hərbi sahədə olan yeniliklər də Azərbaycan hərb tarixinin ilklərindəndir. Azərbaycanda ilk Əlahiddə Ümumqoşun Ordusu ötən il Naxçıvanda yaradılmışdır.

Sonda ümumiləşdirmə aparsaq, belə bir nəticə hasil olur ki, muxtar respublikamız hərb sahəsində aşağıdakı ilklərə imza atmışdır: Dövlət Müdafiə Komitəsi, Milli Ordu hissələri, ilk milli sərhəd qoşunları Naxçıvanda yaradılmışdır. Bütün keçmiş müttəfiq respublikalar içərisində ilk dəfə olaraq sovet imperiyasının ordu hissələrinin, bütünlüklə, Naxçıvandan çıxarılması, ilk hərbi parad, ilk dəfə azərbaycanca “Farağat” komandası və sair kimi ilklərin şahidi olan Naxçıvan torpağı Azərbaycan hərb tarixində əhəmiyyətli rola malikdir.

**Nərgiz İSMAYILOVA**

## Naxçıvanda araşdırılacaq elmi sahələr yetərincədir

***Bu gün bir çox cəhətdən dünyanın inkişaf etmiş ölkələri ilə bir sırada dayanan Azərbaycanda elmin inkişafına daha çox ehtiyac duyulur. On bir iqlim qurşağının doqquzu bizim məmləkətdədir, zəngin yeraltı-yerüstü sərvətlərimiz var. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da zəngin təbii ehtiyatlara malikdir. Deməli, burada elmin meydanı daha genişdir. AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun fəaliyyəti ilə maraqlanmağımızın səbəbi məhz muxtar respublikada bu istiqamətdə aparılan elmi-tədqiqat işləri ilə bağlı oxucularımızı bilgiləndirməkdir. İnstitutun direktoru, kimya elmləri doktoru Əliəddin Abbasovla görüşüb həmsöhbət olduq. Müsahibim muxtar respublikanın zəngin ehtiyatlara malik mineral sərvətlərindən və bu sərvətlərin öyrənilməsi istiqamətində aparılan elmi-tədqiqat işlərindən danışdı. Əvvəlcə Əliəddin müəllimi Azərbaycan Milli Elmlər Akademiyasına müxbir üzv seçilməsi münasibətilə təbrik etdik, yeni yaradıcılıq uğurları arzuladıq:***

– Çox sağ olun. Elmi işlə məşğul olanlar üçün Azərbaycan Milli Elmlər Akademiyasına üzv seçilməyin, Azərbaycanın elmi elitasına daxil olmağın nə qədər şərəfli və məsuliyyətli olduğunu elmi işlə məşğul olan hər kəs çox yaxşı anlayır. 308 iddiaçı arasından bu ada layiq görülmək çox böyük şərəfdir. Bu hadisə Naxçıvanda artıq formalaşmış elmi mühitin daha da güclənməsinə əsaslı stimuldur. AMEA Naxçıvan Bölməsi yaradılanadək bu diyarda fəaliyyət göstərən kiminsə akademiyaya üzv seçiləcəyi heç kimin ağlına belə, gəlməzdi. Bugünkü hadisələr ölkədə gedən ictimai-siyasi və iqtisadi proseslərin gerçək nəticəsidir. Bu gün istər bütün ölkə miqyasında, istərsə də Naxçıvanda, sözün tam anlamında, elmə və elm adamlarına çox böyük qayğı və diqqət göstərilir. Son bir neçə ildə dəyəri milyon manatlarla ölçülən cihaz və avadanlıqların, kimyəvi reaktivlərin alınmasına çəkilən xərclər elmi araşdırmaların miqyasını və səviyyəsini xeyli yüksəltmişdir. İnstitut əməkdaşlarının elmi işlərinin nəticələrinin çox nüfuzlu beynəlxalq konqres və konfransların materiallarında dərc olunması bu gün kimisə təəccübləndirmir. Hamı aydın dərk edir ki, bu uğurların arxasında hər bir tədqiqatçının əməyi ilə yanaşı, dövlət qayğısı dayanır.

Elmi araşdırma ilə məşğul olduğum sahəyə gəlincə, sorbsiya vasitəsilə mürəkkəb tərkibli məhlullardan və qarışıqlardan qiymətli elementlərin fərdi şəkildə ayrılması və flotasiya prosesləri məni maraqlandıran əsas sahələrdir. Birinci halda xüsusi uduculardan – ionitlərdən istifadə olunur, ikinci metodda isə uyğun flotoreagentlər seçilməklə minerallardan tələb olunan komponenti ayırmaq mümkün olur. Hazırda dünyada hər il emal olunan 2,5 milyard tona yaxın minералların, təxminən, 90 faizi bu metodla zənginləşdirilir. İnstitutumuzda flotasiya metodu ilə Gümüşlü polimetallik və Parağaçay molibdenit filizinin zənginləşdirilməsi istiqamətində tədqiqat işləri aparılır.

***– Rəhbərlik etdiyiniz institutda təbii ehtiyatların öyrənilməsi nəzəri və praktik baxımdan hansı səviyyədədir? Alınan nəticələr elmi baxımdan sizi qane edirmi?***

– Əvvəlcə bir faktı qeyd edim ki, institutumuzda muxtar respublikanın təbii ehtiyatlarının öyrənilməsinə muxtar respublika rəhbərinin qayğısı sayəsində alınan müasir avadanlıqlar əsaslı stimul olmuşdur. İnstitut əməkdaşları Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 3 qrant layihəsinin qalibi olmuş, bu qrantlar hesabına fond vasitəsilə dəyəri 100.000 manatdan artıq avadanlıq və kimyəvi reaktivlər alınmışdır. Məhz bunun hesabına Gümüşlü polimetallik yatağı filizinin kompleks emalının elmi və praktik əsaslarının işlənib hazırlanması, yerli xammal materialları əsasında dərman preparatlarının alınması və Naxçıvanın seolitləri əsasında istiliyədavamlı izolyasiya materiallarının alınması istiqamətində əhəmiyyətli tədqiqat işləri yerinə yetirilmişdir. Bunlardan başqa, Parağaçay molibdenitindən molibdenin ayrılması üzərində də intensiv araşdırmalar aparılır. Muxtar respublikanın çox zəngin dolomit yataqlarının öyrənilməsi çox maraqlı olardı. Günəş batareyalarına alternativ strukturlar yaradılması istiqamətində böyük udma əmsalları və optimal qadağan olunmuş zona ilə xarakterizə olunan perspektivli birləşmələrin sintezi ilə bağlı intensiv araşdırmalar bəhrəsini verməkdədir. Naxçıvanın rekreasiya imkanları, landşaftı, iqlimi, hidroloji şəraiti ilə bağlı aparılan araşdırmalar və əldə edilən nəticələr olduqca maraqlıdır. Aparılan tədqiqat işlərinin səviyyəsi əldə olunan nəticənin nüfuzlu jurnallarda, beynəlxalq statuslu konqres, simpozium və konfransların materiallarında dərci ilə qiymətləndirilir. Bu baxımdan uğurlarımız çoxdur, desəm yanılmaram. Nəticələrimiz ümumdünya, ümumavropa beynəlxalq konfranslarının materiallarında dərc olunur. Mən özüm neçə ildir, xarici ölkələrdə keçirilən belə elmi tədbirlərdə iştirak edirəm.

***– Bu illər ərzində institutda neçə elmlər doktoru və fəlsəfə doktoru hazırlandığı haqda məlumat verməyinizi istərdim.***

– Ümumiyyətlə, institut fəaliyyətə başladığı gündən burada 2 elmlər, 8 fəlsəfə doktorluğu dissertasiyaları müdafiə edilmişdir. İnstitutumuz çoxprofilli olduğundan bu spektrdə kimyaçılar, fiziklər, iqtisadçılar və texnika elmləri nümayəndələri təmsil olunurlar. 5 nəfər əməkdaşımızın müxtəlif ixtisaslar üzrə fəlsəfə doktoru dissertasiyaları hazır olduğundan bu ilin sonuna və ya gələn ilin əvvəllərinə müdafiələri planlaşdırılır. Elmi əməkdaşlarımız çox güvənilən, istedadlı, öz üzərlərində ardıcıl işləməyi sevən, sabaha inamla və nikbinliklə baxan, arzularının gerçəkləşməsinin öz əllərində olduğunu dərk edən istedadlı gənclərdir. Üç əməkdaşımız isə elmlər doktoru hazırlığı üzrə dissertasiyaları üzərində çalışır. Aydındır ki, bütün bunlar elmin inkişafının göstəricisidir. Fikrimcə, daha bir əlamətdar hadisə artıq Naxçıvanda elmi məktəblərin yaranmasıdır. Canlı elmi mühit, intellekti ilə seçilən alimlərin elmi məktəbləri olmasa, elmin inkişafından söhbət gedə bilməz.

***– Elmi işlərin mövzuları necə müəyyənləşdirilir?***

– İnstitutumuzda aparılan elmi-tədqiqat işləri, əsasən, Naxçıvanın elmi problemlərindən doğan mövzuları əhatə edir. Çalışırıq ki, aldığımız elmi nəticələri praktika ilə uzlaşdırıb praktik elmin payını və əhəmiyyətini yüksəldə bilək. Azərbaycanda elmin humanitar, sosial elmlər, iqtisadiyyat kimi sahələri beynəlxalq səviyyədə, demək olar ki, təmsil olunmadığından ölkə elminin 10 prioritet sahəsinə üstünlük verilir: fizika və astronomiya, tibb, kimya, materialşünaslıq, mühəndislik, riyaziyyat, yer elmləri, kimya mühəndisliyi, kompüter elmləri və energetika. Fundamental araşdırmaların öncül inkişafı olmadan dövlətin çağdaş problemlərini həll etmək imkanları mümkünsüz olur. Başqa sözlə, fundamental elmlər ölkəmizin ən yüksək milli maraqları ilə bir cərgəyə qoyulur. Bu məntiqdən yola çıxaraq biz də fəaliyyətimizdə fundamental araşdırmaların xüsusi çəkisinin yüksək olmasına çalışırıq. Ümumiyyətlə, yekdil rəy belədir ki, Azərbaycan elminin dinamik inkişafını təmin etmək üçün mövcud vəziyyətə korrektələr edilməli və təbiət elmləri üzrə alimlərin sayı və elmi faydalılıq əmsalı artırılmalıdır. Formalaşmış prioritetlər elmin, texnika və texnologiyaların çağdaş sahələri və istiqamətlərindən ibarətdir. Azərbaycan elmində formalaşmış sahə və istiqamətlər bundan sonra da maliyyələşmədə, kadr hazırlığında üstünlüklərə və imtiyazlara malik olmalı, maddi-texniki baza əhəmiyyətli dərəcədə son nəsil avadanlıqlarla gücləndirilməlidir. Başqa sözlə, mövcud prioritetlər elmimizin gələcək inkişaf proqramlarının tərkib hissəsi olmalıdır. Başqa cür hansısa uğura nail olmaq mümkün deyil.

***– Bir neçə kəlmə də institutun gələcək planları haqda.***

– Təbii ehtiyatların öyrənilməsi, son nəticədə, nəzərdə tutulan komponentin əldə edilməsinə hesablanır. Bu isə o qədər də asan məsələ deyil. Çoxlu riyazi hesablamalar apara bilmək istedadı, texnoloji proseslərdən baş çıxarmaq bacarığı, yaxşı eksperimentatorluq qabiliyyəti, alınan nəticələrin interpretasiyası – bunlarla silahlanan alim üçün istənilən problemin həlli mümkündür. Naxçıvanın çox zəngin təbii ehtiyatlarının – molibden, sink, arsen, qurğuşun, qızıl, gümüş, kobalt, mis, renium birləşmələrindən bu metalların alınması, müxtəlif gil, seolit, şora və kükürd yataqlarının tələb olunan elementə görə işlənməsi institutun əməkdaşlarının və təbii ki, gələcək ardıcıllarımızın əsas araşdırma obyektləri olacaq. Naxçıvanın ilbəil güclənən dinamik iqtisadiyyatını izləmək, bundan uyğun nəticələr çıxarmaq isə, təbii ki, iqtisadçıların araşdırma mövzuları olacaq. Antropogen təsirlərdən yaranan deformasiyalar, doğma diyarın hələ nə qədər kəşf olunmamış gizlinləri coğrafiyaçıların araşdırmaları ilə aydınlığa qovuşacaq. Göründüyü kimi, işləmək üçün araşdırılacaq elmi sahələrimiz yetərincədir.

***– Müsahibə üçün sağ olun.***

**Müsahibəni apardı:**
**Sara ƏZİMOVA**

*Son dövrlər Naxçıvan Muxtar Respublikası ərazisində beynəlxalq səviyyəli arxeoloji qazıntıların aparılması sayəsində uğurlu elmi nəticələr əldə olunmuşdur. Naxçıvanın qədim tarixinin öyrənilməsində ərazidəki antik, orta əsr və müasir dövr arxeoloji nümunələrin, tarixi və təbiət abidələrinin, ilk insanların yaşadığı mağaraların, istifadə etdikləri müxtəlif mənşəli alətlərin, qədim yaşayış sahələrinin, möhtəşəm qalaların, türbələrin, əhalinin etnogenezinin, epiqrafik və etnoqrafik nümunələrin sistemli şəkildə elmi araşdırmalara cəlb olunması mühüm rol oynamışdır.*



*Naxçıvan Muxtar Respublikasında Araz çayının şərq hissəsində üçüncü dövrün pliosen layında Vitis sylvestris L növünün daşlaşmış qalıqları*

## Naxçıvan tarixinə fitopaleontoloji baxış

Qeyd edək ki, regiondakı aborigen türk tayfalarının tarixinin öyrənilməsində paleontoloji dəlillərin toplanılması və elmi araşdırılması ərazidə insan cəmiyyətinin yaranmasını, birgəyaşayış qaydalarının təkamülünü, əkinçilik mədəniyyətinin və insan şüurunun formalaşmasının inkişafını izləməyə imkan verər. Bu baxımdan Naxçıvan ərazisində arxeoloji qazıntılar nəticəsində müxtəlif bitki mənşəli qalıqların tapılması, fitopaleontoloji dəlillərin toplanılması və öyrənilməsi qədim tarixinin araşdırılması üçün çox əhəmiyyətlidir.

Cənubi Qafqazda ən qədim əkinçilik mədəniyyətinin öyrənilməsi məhz Naxçıvandakı I Kültəpədən başlanmışdır. Erkən Tunc dövründə Naxçıvanda Kür-Araz mədəniyyəti ilə yanaşı, əkinçilik mədəniyyəti də formalaşmışdır. Naxçıvanda buğda əkilməsinin 4-6 minillik tarixi vardır. Çalxanqala kəndi ətrafında yabanı təkdənli və ikidənli buğdanın tapılması bu ərazidə qədim əkinçilik ənənələrinin yaranmasından xəbər verir. Arxeoloji qazıntılar zamanı Şahbuz rayonunda xalq seleksiyası yolu ilə yaradılmış mədəni təkdənli buğda (pərinc) növünün toxumlarının kömürləşmiş qalıqlarının aşkarlanması ərazidəki türk tayfalarının zəngin əkinçilik təcrübəsinin sübutudur. Tarixi mənbələrdən məlumdur ki, Erkən Tunc dövründə buğda əkini sahələri xışla şumlanırdı. Naxçıvan yaxınlığında Kültəpə ərazisində aparılan qazıntılarda çoxlu buğda növlərinin daşlaşmış dənləri aşkarlanmışdır. Bu ərazidə I Kültəpənin Erkən Tunc dövrü təbəqəsində arxeoloji qazıntılar nəticəsində arpa, buğda, noxud, darı qalıqlarının tapılması mədəni əkinçiliyin daha qədim dövrlərə söykəndiyini deməyə əsas verir. II Kültəpədə təsdiq olunmuş mənbələrə görə, 700-900 nəfərlik yaşayış məskəni olmuşdur ki, burada əhali taxılçılıq, maldarlıqla məşğul olmuşdur. Belə tapıntılar əkinçiliyin də şaxələndiyini göstərir.

Naxçıvan əhalisinin etnogenezi tarixinə əsasən, Erkən Orta əsrlərdə bu ərazidə hun, xəzər, sabir, bolqar, oğuz, suvar, xurs və digər türkdilli tayfalar yaşamışlar. Arxeoloji qazıntılar zamanı fitopaleontoloji tapıntıların əldə olunması bu ərazidə uzun tarixi inkişaf yolu keçmiş əkinçilik mədəniyyətinin aborigen türkdilli tayfalar tərəfindən yaradıldığını deməyə əsas verir.

Qeyd edək ki, artıq X-XII əsrlərdə Naxçıvanda kənd təsərrüfatının mühüm sahələrindən birini bağçılıq təşkil edirdi. O dövrdə bu ərazidə müxtəlif növ yabanı alma, armud, alça, badam növləri, həmçinin bu növlərdən seçmə yolu ilə yaradılan və bu günümüzə qədər gəlib çıxan çoxlu sayda alma, armud, gilas, gilənar, heyva, cəviz, badam, şaftalı, tut, ərik, zoğal sortları becərilirdi. Türk səyyahı Ö.Çələbi o dövrdə Naxçıvanda – Qarabağlarda bir bağda 26 sort armudun, o cümlədən "Abbasi", " Mələcə", "Ordubadi" sortlarının və çox dadlı qovun, qarpız becərildiyini qeyd etmişdi.

Qeyd edək ki, hələ eramızdan əvvəl V minillikdə ərazidə yaşayan insanlar təsərrüfat fəaliyyətinin əsas formaları olan ovçuluq, balıqçılıqla yanaşı, meşə və dağlıq ərazilərdə yayılan yabanı meyvə, giləmeyvə, o cümlədən yabanı üzüm – Vitis sylvestris L növünün məhsullarından istifadə etmişlər.

Muxtar respublika ərazisində Araz çayının şərq hissəsində, III dövrün pliosen layından tapılmış daşların üzərində yabanı üzüm – V. sylvestris L növünün yarpaqlarının daşlaşmış qalıqlarına rast gəlinmişdir. Bu fitopaleontoloji tapıntı regionun ən qədim üzümçülük mərkəzlərindən biri olduğunu sübut edir.

İslam dininin qəbul edilməsinə qədərki dövrdə bu ərazidə üzümdən, əsasən, şərab məhsullarının hazırlanmasına diqqət yetirildiyindən üzüm bağlarında texniki sortlar üstünlük təşkil etmişdir. Lakin İslam dininin qəbul edilməsi ilə əlaqədar olaraq, şərab məhsulları istehsalı qadağan olunduğundan üzümlüklərdə daha çox süfrə sortlarının becərilməsinə başlanılmışdır.

Midiyanın şimal-qərb vilayətindən alınan vergilər sırasında şərab vergisinin də adı çəkilir. B.e.ə. 714-cü ildə II Sarqon Urartu üzərinə yürüş edərkən mannalılar Assuriya qoşunlarını un və şərabla təchiz edirmişlər. XIII əsrə aid "Əcaib-əd Dünya" (Dünyanın qəribəlikləri) salnaməsində göstərilir ki, Naxçıvanda çoxlu meyvə bağları və üzümlüklər vardır. Naxçıvanda "meyvələr çox dadlıdır, deyirlər, dünyanın heç bir yerində belə yaxşı və faydalı üzüm yoxdur". Hazırda Rusiyanın Sankt-Peterburq şəhərindəki Ermitajda saxlanılan və Naxçıvan ərazisindən tapılmış VII əsrə aid üzüm salxımları ilə bəzədilmiş tunc at fiquru əyani şəkildə göstərir ki, bu diyarın yerli əhalisi çox qədimdən üzüm yetişdirilməsi ilə məşğul olmuşdur.

Arxeoloji qazıntılar zamanı tapılmış üzüm toxumlarının daşlaşmış qalıqları, şərab küpləri, bağçılıqda işlədilən müxtəlif alətlər (toxa, bel, dəhrə, bıçaq, qayçı, üzüməzən daş alətlər, təknə və sair), habelə qablar (müxtəlifölçülü süzgəclər, kuzə, cam, qədəh, piyalə) regionda üzümçülüyün hələ ən qədim zamanlardan inkişaf etdiyini göstərir. Kəngərli rayonunun Qıvraq qəsəbəsinin, Şahtaxtı və Qarabağlar kəndlərinin, Babək rayonundakı II Kültəpə yaşayış yerinin ərazisindən bilavasitə üzümün emalında istifadə edilən çoxlu sayda daş alətlər tapılmışdır. Bu üzüməzən daşların ortasında dərin çökək, bir ucunda isə süzülməsi üçün novça vardır. Belə tapıntılar həmin ərazilərdə hələ eramızdan əvvəl III-II minillikdə üzümçülüyün inkişafını göstərir. Həmçinin Oğlanqalada tapılmış b.e.ə. IX-VIII əsrlərə aid qalıqlar içərisində yabanı üzüm – Vitis vinifera L növünə aid toxumlar aşkar edilmişdir. Qeyd etmək lazımdır ki, Dəmir dövrünə aid qazıntılarda belə qalıqlara daha tez-tez rast gəlinir.

Tarixi mənbələrdə Naxçıvan ərazisində 100-dən artıq üzüm sortunun becərildiyi qeyd olunur. Ona görə də Naxçıvanda yayılan yabanı üzümün mənşəyinin genotipcə elmi şəkildə araşdırılması elmi maraq doğurur. Naxçıvanda yayılan yabanı üzümün mənşəyinin qədimliyini tədqiq etmək məqsədilə Rusiya Federasiyası Kuban Dövlət Universitetinin Üzümçülük kafedrasının müdiri, professor N.P.Troşinin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası ərazisində yayılan yabanı üzüm tənəklərinin morfoloji əlamətləri, genotipi Rusiya, Ukrayna, Şimali Qafqaz ərazilərində yayılan və etalon kimi götürülmüş 6 növ yabanı üzümlə müqayisəli şəkildə müvafiq kompüter proqramı əsasında çoxölçülü analizləri aparılmışdır. Əldə olunan elmi nəticələrlə Naxçıvanda yayılan yabanı üzüm növünün Rusiya və Ukrayna ərazilərində yayılan yabanı üzüm növlərindən mənşəcə daha qədim tarixə malik olduğu aşkar edilmişdir.

Zənnimizcə, gələcəkdə Naxçıvan Muxtar Respublikası ərazisində aparılan arxeoloji qazıntılara bioloqların da qatılması ərazidə sistemli şəkildə fitopaleontoloji, zoopaleontoloji və homopaleontoloji dəlillərin toplanılmasına, nəticədə, Naxçıvanın tarixinə dair yeni maddi sübutların əldə olunmasına səbəb olar.

***Varis QULİYEV***
***aqrar elmləri doktoru***

*Məlum olduğu kimi, uşaqlar üçün yazılan bədii və elmi-kütləvi əsərlər məcmusu "uşaq ədəbiyyatı" adlanır. Bədii ədəbiyyatın tərkib hissəsi olan uşaq ədəbiyyatı nümunələrində xalqların və uşaqların həyatına dair, onların yaş xüsusiyyətlərinə, qavrama qabiliyyətlərinə uyğun janr, forma və üslubda müxtəlif problemlər qaldırılır, gənc nəsildə yüksək əxlaqi keyfiyyətlər, vətənpərvərlik, sədaqət, dostluq, doğruluq, əməksevərlik, insanpərvərlik və humanizm kimi yüksək insani keyfiyyətlər tərbiyə edilir. Uşaqlar üçün yazılan əsərlər xeyirxah, mərd və cəsur qəhrəmanları, maraqlı süjet və kompozisiyası, anlaşıqlı, sadə və aydın bədii ifadə vasitələri, səlis dili ilə seçilir. Uşaq ədəbiyyatının sələfləri sayılan M.Füzuli, Q.Zakir, A.A.Bakıxanov, S.Ə.Şirvani, M.Ə.Sabir, F.Köçərli, A.Səhhət, S.S.Axundov, A.Şaiq, Mir Cəlal, M.Rzaquluzadə, M.Seyidzadə, M.Dilbazi və başqalarının açdığı cığır yolunu naxçıvanlı xələflər (Asim Yadigar, Vaqif Məmmədov, Həsənəli Eyvazlı, Zaur Vedili, Qafar Qərib, İlyas Fərəməzoğlu və başqaları) davam etdirirlər.*

# Gənc nəslin təlim-tərbiyəsində uşaq ədəbiyyatının rolu

Böyüklər hər bir uşaqla emosional münasibət qurmağa səy göstərməlidirlər. Uşaqların saçını tumarlamaq, onların könlünü ələ almaq tərbiyəçiyə qarşı müsbət münasibət yaradır. Kiçik uşaqlar böyüklərin nəvazişinə olan tələbatı müxtəlif cür ifadə edə bilirlər. Böyüklər uşağın təşəbbüsünə, təşəbbüs göstərmək cəhdlərinə həmişə cavab verməyə maraqlı olmalıdırlar. Uşaq, adətən, özünü rahat hiss etmədikdə buna ehtiyac duyur. Uşağın kədərlənməsinin səbəbləri müxtəlif ola bilər: fiziki nasazlıq, ailədə münaqişə, yaşıdlarından inciməsi, nəyisə bacarmaması, paltarına ləkə yaxılması və sair. Bu zaman böyüyün vəzifəsi uşağın keçirdiyi hissləri başa düşmək, ona kömək etmək və uşağı nəsihətamiz şəkildə vəziyyətdən çıxarmaqdır. Bu mənada Əbülfəz Ülvinin "Məktəbli qız" adlı şeri maraq doğurur. Burada Əbülfəz Ülvi uşaqları yoran, darıxdıran nəsihətçilikdən uzaqdır. Bəzən çətin, uzun, ağır tələffüz olunan sözlərlə dolu əsərlərin ideyası, məzmunu balaca oxucuya çatmır və ona lazımi tərbiyəvi təsir göstərmir. Əbülfəz Ülvinin uşaq şeirlərinin əksəriyyəti dilinin sadəliyi, oynaqlığı, axıcılığı və bədiiliyi ilə fərqlənir. "Məktəbli qız" şerində oxuyuruq:

*Hönkürtü eşidib ayaq saxladım,*
*Gördüm, bir məktəbli qızdır ağlayan.*
*Gəlib yaxınına dedim: – övladım,*
*Nədir ürəyini belə dağlayan?*
*– Baxın paltarıma, – dedi: – baxın bir,*
*Bu gün ləkə yaxıb sinif yoldaşım.*
*Bizim ailə də ləkəni sevmir.*
*Nə anam, nə atam, nə də qardaşım.*
*Dedim: – duymamısan mənanı, bəlkə,*
*Axıtma gözünün büllur çeşməsin.*
*Yuyulub gedəcək paltardan ləkə,*
*Qoru, qoy adına ləkə düşməsin.*

Hər birimizə balaca yaşlarından aşılanıb ki, çörəyin qədrini bilək. Hər hansı bir uyğunsuzluq, narahatlıq görəndə, hiss edəndə dərhal bizə irad tuturdular ki, "bala, çörəyin qədrini bilin, aclıq yamandı! Darı cadı, arpa kömbəsi yeməmisiniz, çöllərin otunu-alafını qaynatmamısınız. Allaha ağır gedər, çörəyi ayaq altına atmayın. Biz onun çox korluğunu çəkmişik!!!" Çörəyi ən müqəddəs nemət sayır, hətta onu "Quran"a bərabər tuturuq. Bəzən "çörək haqqı" deyə bu müqəddəs nemətə and içir, Tanrıdan çörəklə imtahana çəkilməməyi diləyir, ən hörmətli qonağı duz-çörəklə qarşılayırıq. Bəzən yaxın, doğma birisinin haqsızlığıyla üzləşəndə "səni görüm çörək tutsun" deyə qarğış edilməsi bu müqəddəs nemətin hər şeyə qadir olduğuna işarədir. Və yaxud bağçayaşlı, məktəbli uşaq çörəyi yerə tökəndə, çörəyə hörmət qoymayanda başqaları tərəfindən məzəmmətlənir və ya deyilir ki, "sən böyüyəndə çörək tapmayacaqsan". Bu kimi fikirlərimizin Nazlı Hacılı "Cəza" adlı uşaq şerində daha gözəl təsvirini yaratmışdır:

*Əlindəki çörəyi*
*Qəzənfər yerə atdı.*
*Dedi: – Neynirəm bunu,*
*Köhnəlibdir, bayatdır.*

*Bunu görən qonşular*
*Məzəmmət etdi onu.*
*Görün bir necə bitti*
*Bu düşüncənin sonu.*

*Yatıb yuxuda gördü,*
*Çörək tapmır o andan.*
*Nəyi yemək istəyir,*
*Hamısı qaçır ondan.*

Uşaq ədəbiyyatında həyatın bütün sahələri əks olunmalıdır. Həyatda elə bir problem yoxdur ki, uşaq ədəbiyyatında ona toxunmaq mümkün olmasın. Uşaq maraqlarını səngitmək, onu lazımi məcraya yönləndirmək üçün uşaq ədəbiyyatının xidməti əvəzsizdir. Uşaqların maraq dolu suallarına cavabı Elbəyi Sadıqoğlunun şerində tapırıq:

*– Baba, axı balıqlar*
*Quruda niyə gəzmir?*
*Bəs dənizdə gəmilər*
*Balığı niyə əzmir?*
*– Bala, axı balıqlar*
*Ayaqsızdır gəzəmmir,*
*Dənizdə yaşayanlar*
*Quruda da üzəmmir.*

*Dəniz sakit olanda*
*Balıqlar oynaşırlar,*
*Gəmini görən kimi*
*Qaçıb uzaqlaşırlar.*
*İndi bildin, balıqlar*
*Quruda niyə gəzmir,*
*Suda üzən gəmilər*
*Onları niyə əzmir?*

Bizim milliliyimizi təmsil edən mərasimlərdən biri də çillə gecəsidir. Çillə gecəsi 3 ay Novruz bayramına qalmış bir gecədir. Çillə gecəsindən sonra günəşli günlər uzanır. Mərasimin ideyası işığın qaranlıq üzərində simvolik qələbəsidir. Qədim inanclara görə, həmin gecə xeyir qüvvə (Axura Mazda) şər qüvvə (Əhrimən) ilə kəskin mübarizə aparmışdır. Bu mərasimin ən əhəmiyyətli atributlarından biri qarpızdır. Belə ki, hər ailə həmin gecə mütləq bir qarpız almalıdır. Cəviz halvası, kök (həvic) halvası, paxlava, günəbaxan toxumu, meyvələr və şirniyyatlar bu gecə süfrədə olmalıdır. Ancaq düşünürsən ki, artıq balaca uşaqlar "milax asmaq", "qovut" kimi sözlərin mahiyyətini unutmaq üzrə olsalar da, İbrahim Yusifoğlunun "Çillə gecəsi" adlı uşaq şerində bu ifadələrin mahiyyətini anlayarlar. Şeir milli ruhumuzu oxşayan bir şerdir:

*Qonaq gəlmişik*
*Biz babamgilə.*
*Axı bu gecə*
*Çillədi, çillə.*
*Saatlar, anlar*
*Xoş keçəsidi,*
*Bu gün ən uzun*
*Qış gecəsidi.*
*Nənəm süfrəyə*
*Gör nələr düzüb,*
*Milaxdan armud,*
*Üzümü üzüb.*
*Bir-bir seçibdi*
*Alma-heyvanı,*
*Ətri bürüyüb*
*Evi, eyvanı.*
*Küncüd qatıbdı*
*Qoza, badama,*
*Çox ləzzət verir*
*Dadı adama.*
*Babam saxlayıb*
*Çillə qarpızı,*
*Çəkisi bir pud*
*Olardı azı.*
*Qarpızı kəsib*
*Dilim eylədi,*
*Bizə paylayıb*
*– Yeyin, söylədi.*
*...Mahnı oxuyub,*
*Şeirlər dedik,*
*Doşab qatılmış*
*Qovutdan yedik...*

Yekun olaraq qeyd edək ki, uşaq şeirləri gələcəyimiz olan övladlarımızın təlim-tərbiyəsi işinə öz müsbət təsirini göstərməklə yanaşı, həm də uşaq psixologiyasına, uşaq marağına müvafiq yazılmış müvəffəqiyyətli əsərlərdir. Yazıçı və şairlərimizi son dərəcə çox həssas olan uşaqlar üçün daha çox əsərlər yazmağa çağırır və bu yazını böyük rus pedaqoqu V.Q.Belinskinin fikri ilə bitirmək istərdik: "Yazın, uşaqlar üçün yazın, ancaq elə yazın ki, onu yaşlılar da eyni zövqlə oxuya bilsin və oxuyarkən xəfif bir xəyal içində öz gözəl uşaqlıq illərini yad etsinlər."

**Kamal CAMALOV**
***pedaqogika üzrə fəlsəfə doktoru***

*Yeni nəşrlər*

# "Şeypur" jurnalı və Məmmədəli Sidqi haqqında ilk kitablar







*Filologiya elmləri doktoru, əməkdar elm xadimi Hüseyn Həşimli iyirminci əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı və mətbuatının unudulmuş səhifələri barədə çoxsaylı kitab və məqalələrin müəllifidir. Onun bu istiqamətdəki tədqiqatları sırasında doğma Naxçıvanımızın yetirməsi olan bir sıra ədiblərin yaradıcılığının ilk dəfə sistemli şəkildə araşdırılması da özünəməxsus yer tutur. Alimin bu yaxınlarda "Elm və təhsil" nəşriyyatında çap olunmuş iki yeni kitabı onun həmin sahədəki səmərəli tədqiqatlarının davamı və uğurlu bəhrəsi kimi maraq doğurur.*

Kitablardan biri "Məmmədəli Sidqi və "Şeypur" jurnalı" adlanır. Adıçəkilən Məmmədəli Sidqi (1888-1956) məşhur maarifçi, həmyerlimiz Məhəmməd Tağı Sidqinin oğludur. Ötən əsrin birinci yarısında Azərbaycanda maarif, ədəbiyyat, mətbuat, teatr və sair sahələrdə ciddi, mühüm xidmətlər göstərmiş Məmmədəli Sidqinin çoxşaxəli fəaliyyəti, təəssüf ki, indiyədək öyrənilməmiş, yalnız tək-tək müəlliflər onun haqqında qısa fikirlər söyləmişlər. Hüseyn Həşimli görkəmli həmyerlimiz haqqında uzun müddət araşdırma aparmış, onun həyat və yaradıcılığı barədə bitkin təsəvvür yaradan kitab yazmışdır. Kitabın "Məmmədəli Sidqinin ömür yolu və fəaliyyətinin əsas yönləri" adlı ilk fəslində tədqiqatçı ötən əsrin ilk onilliklərinə aid çoxsaylı dövri mətbuat və arxiv materialları əsasında bu istedadlı ziyalının həyat və yaradıcılığının başlıca mərhələ və istiqamətlərini incələmiş, onun Naxçıvan, Bakı və Aşqabaddakı pedaqoji fəaliyyəti, ötən əsrin ilk onilliklərində "Həyat", "İrşad", "Molla Nəsrəddin", "İqbal", "Sovqat", "Bəsirət", "Təzə xəbər", "Sədayi-həqq", "Sədayi-vətən", "Həqiqət", "Babayi-Əmir", "Azərbaycan", "Zənbur" kimi digər qəzet və jurnallarda "Zadə", "Rizə", "Əfi", "Bekar", "Qəmiş", "Bir naxoş", "Kabla Kövsər", "Kərtənkələ", "Kəzbi", "Lavaş" və digər imzalarla dərc etdirdiyi çoxsaylı bədii və publisistik yazıların əsas məğzinə, ideya-bədii məziyyətlərinə nəzər salmış, onların bir qismini ilk dəfə təhlilə cəlb etmişdir. M.Sidqinin bədii yaradıcılığı, teatr sahəsində fəaliyyəti də çoxsaylı qaynaqlar əsasında işıqlandırılmışdır. Kitabın ikinci və üçüncü fəsilləri isə Məmmədəli Sidqinin redaktorluğu ilə Bakıda 1918-1919-cu illərdə çıxmış "Şeypur" jurnalına həsr olunmuşdur. O illərdə Azərbaycanın yenidən işğalına çalışan bolşeviklərin, torpaqlarımıza basqınlar edib qanlar tökən ermənilərin mənfur simasını ifşa edən bu jurnal sovet dövründə "əksinqilabi ruhlu" mətbuat orqanı sayılaraq diqqətdən kənarda qalmış, son vaxtlarda isə onun haqqında yalnız bəzi qısa mülahizələr söylənilmişdir. H.Həşimli ilk dəfə əhatəli araşdırma aparmış, jurnal barədə bir sıra məsələləri dəqiqləşdirmişdir. Xüsusən jurnaldakı "Şeypur" imzasının şair-publisist Səməd Mənsura deyil, Məmmədəli Sidqiyə mənsubluğu sübuta yetirilmişdir. Üçüncü fəsildə M.Sidqinin "Şeypur"da çıxmış məqalə və felyetonları ilk dəfə özünün elmi tədqiqini tapmışdır. Həmin əsərlər Vətən və xalq taleyi üçün aktual məsələləri əks etdirməsi, dərin milli məzmunu ilə seçilir, xüsusən bolşevik-daşnak qüvvələrin iç üzünü açması, ümumən, ideya-bədii dolğunluğu ilə böyük əhəmiyyətə malikdir. Kitabın "Əlavələr" bölməsində Məmmədəli Sidqinin "Şeypur" jurnalında çıxmış əsərlərindən seçmələrin transliterasiya edilərək oxuculara çatdırılması elmi təhlillərdən alınan təəssüratı layiqincə tamamlayır və Məmmədəli Sidqinin dərin milli ruhlu bir ziyalı olduğunu aşkar şəkildə nümayiş etdirir. Onun "Əsgərlik", "Altı ay", "Nə istəyirlər?", "Siyasət", "Bu gün", "Qrammofon", "Barışırlar", "Gürcü-erməni vuruşması" kimi məqalə və felyetonları bu baxımdan xüsusilə diqqəti çəkir.

Qeyd etdiyimiz kimi, indiyədək araşdırılmayan "Şeypur" jurnalı Məmmədəli Sidqinin redaktorluğu ilə çıxmışdır. Mətbuat tariximizdə mühüm mövqe tutan bu jurnal o dövrün sosial-siyasi, ədəbi-mədəni reallıqlarını əhatəli şəkildə əks etdirir. Bunu nəzərə alan ədəbiyyatşünas Hüseyn Həşimli jurnalın bütün saylarını transliterasiya edərək latın əlifbası ilə çapa hazırlamış, "Elm və təhsil" nəşriyyatında çap etdirmişdir. "Şeypur" jurnalı (1918-1919-cu illər)" adlanan bu irihəcmli kitabda jurnalın on dörd sayının hamısındakı materiallar ardıcıllıqla oxuculara təqdim olunmuşdur. "Milli mətbuat tariximizin dəyərli səhifəsi" adlı geniş ön sözdə "Şeypur" jurnalı, onun əsas müəllifləri, izlədiyi qayə, tutduğu mövqe və sair barədə ətraflı məlumat verilmişdir. Öyrənirik ki, bu jurnalın səhifələrində onun redaktoru Məmmədəli Sidqi ilə yanaşı, Səməd Mənsur, Cəfər Cabbarlı, Salman Mümtaz, Əliabbas Müznib, Əmin Abid, Məmmədəli Nasir və digər tanınmış ədiblərin aktual mövzularda bədii və publisistik əsərləri nəşr olunmuşdur. Kitabla yaxından tanışlıq deməyə əsas verir ki, uzun illər boyu diqqətdən kənarda qalmış "Şeypur" jurnalı milli mətbuatımızın tarixində önəmli yer tutmuş, xalqın milli özünüdərkində, satirik poeziya və publisistikanın inkişafında diqqətəlayiq rol oynamışdır.

Ümumiyyətlə, ədəbiyyatşünas Hüseyn Həşimlinin uzunmüddətli araşdırmalarının nəticəsi olan hər iki kitab ötən əsrin ilk onilliklərində Azərbaycan mətbuatının inkişafında mühüm xidmətlər göstərmiş daha bir həmyerlimizin – istedadlı və vətənpərvər ədib Məmmədəli Sidqinin çoxşaxəli fəaliyyətinə ilk dəfə sistemli şəkildə işıq salmaqla yanaşı, bütövlükdə, milli mətbuat tariximizin tədqiqi işinə layiqli töhfədir.

**✍ N.İSMAYILOVA**

# Peşə hazırlığı kursları davam etdirilir

Muxtar respublikamızda əhalinin sosial müdafiəsinin gücləndirilməsi, qeyri-məşğul əhalinin işlə təmin edilməsi, müxtəlif sahələr üzrə peşələrə cəlb olunması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Belə tədbirlər sırasında gənclərin və işaxtaran vətəndaşların ehtiyac duyulan sahələrdə işləməsi üçün onlara peşə təhsili verilməsidir.

2009-cu ilin aprel ayından fəaliyyətə başlayan Naxçıvan Regional Peşə Tədris Mərkəzi bu funksiyanı uğurla yerinə yetirir. Ötən müddət ərzində mərkəzdə yüzlərlə gənc müxtəlif peşələrə yiyələnib, ehtiyac olan sahələrdə işlə təmin edilib. Hazırda mərkəzdə 4 ixtisas üzrə məşğələlər davam etdirilir. Ağac üzərində oyma, qadın bərbəri, qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə çilingər, ofisiant peşələri üzrə 57 nəfər təhsil alır. Onlardan 4-ü qadın olmaqla, 8-i məhdud fiziki imkanlılardır. İki ay davam edəcək məşğələlər sona çatdıqdan sonra məzunlara şəhadətnamələr veriləcək, onlar iş yerləri ilə təmin olunacaqlar.

**Xəbərlər şöbəsi**


***İtmişdir***

Babək rayonunun Aşağı Uzunoba kənd sakini Əsgərova Zeynəb Şirin qızının adına olan JN-070A inventar nömrəli, 10311038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşları iş yoldaşları İlham Muradova, anası

**DİLBƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 673